Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Ermənistan hərbi və diplomatik məngənədə - İrəvan ictimai rəyində "Bizim hakimiyyət yaxınlaşan müharibəni görmür" əndişəsi getdikcə artır

**Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həllində hərb amilini son dövrlərdə daha çox qabartmağa başlaması Ermənistanda kifayət qədər böyük bir əndişənin yaranmasına səbəb olub. Burada hesab edilir ki, Azərbaycan artıq istənilən vaxt güc variantına əl ata bilər və bu dəfə mümkün savaş məhşur aprel döyüşləri ilə müqayisədə daha genişmiqyaslı olacaq.**

Bu xüsusda son günlərdə Azərbaycanın Müdafiə Nazirliyinin bir-birinin ardınca verdiyi açıqlamalar Ermənistanın narahatlığnı daha çox artırır.

Xatırladaq ki, müdafiə naziri Zakir Həsənov Mərkəzi Komanda Məntəqəsində ordunun rəhbər heyəti ilə keçirdiyi xidməti müşavirədə Ermənistana ünvanlanmış sərt mesajlar səsləndirib. Zakir Həsənov müşavirədə bildirib:"Düşmən tərəfi anlamalıdır ki, bu dəfə görüləcək tədbirlər 2016-cı ilin aprelindən tam fərqli olacaq, vurulacaq zərər isə ümumilikdə onun siyasi, iqtisadi və hərbi tənəzzülünə gətirib çıxaracaq". Bu fikrin ardınca Azərbaycanın Müdafiə Nazirliyi daha bir maraqlı açıqlama yayaraq düşmənlə silah dilində danışılacağına dair açıq xəbərdarlıq etdi:"Azərbaycan ordusu işğal olunmuş əraziləri azad etmək üçün güc tətbiq etmək hüququndan mütləq istifadə edəcək.Görüləcək tədbirlər 2015, 2016 və 2018-ci illərdəki ilə müqayisədə daha sarsıdıcı və dağıdıcı olacaq. Düşmən böyük itkilər verəcək və bu da öz növbəsində onun tamamilə məğlubiyyətinə gətirib çıxaracaq. Düşmənlə danışmağın yeganə dili silah gücüdür və biz bundan istifadə edərək Ermənistanın işğalçı qüvvələrini ərazilərimizin hüdudlarını tərk etməyə məcbur edəcəyik. Azərbaycan əsgəri silahının gücü ilə buna mütləq nail olacaqdır". Bu bir daha təsdiq edir ki, Azərbaycan güc amilindən istifadəyə hazırdır. Elə erməniləri də indiki məqamda narahat edən budur. Bu xüsusda erməni şərhçi Qraçya Qalustyan vurğulayır ki, Azərbaycan açıq şəkildə ordunu müharibəyə hazırlaşdırır, lakin İrəvan hələ də "günahkar" axtarışındadır: "Azərbaycan yatmır və öz planları haqqında açıq danışır. Mən bizim "divan strateqlərimiz"in təbəssümünü görürəm, onlar deyirlər ki, "Zakir Həsənov ilk dəfə belə danışmır", halbuki, biz düzgün qiymətləndirmə aparmasaq, nəticələr çox ağır olacaq. Misal üçün, koronavirusu düzgün qiymətləndirmədiyimizə görə bu gün ağır nəticələrlə üz-üzə qalmışıq. Hakimiyyət faktiki olaraq pandemiyanın təhlükəli və dağıdıcı təsirini qiymətləndirmədi. Nəticədə çoxsaylı yoluxma və ölüm halları, eləcə də səhiyyə və iqtisadi sektorda dağılma görürük. Bizim hakimiyyət yaxınlaşan müharibəni də görmür, ya da görmək istəmir". Qraçya Qalustyan bildirir ki, Paşinyan hakimiyyəti hər şeyə görə keçmiş rejimi günahlandırır: "Bəli, Serj Sarkisyan, Seyran Ohanyan, Yuri Xaçaturov və digərlərinə görə "aprel müharibəsi"ndə məğlub olduq. Lakin indiki hakimiyyət ordunu gücləndirmə bilmədi. Naxçıvan istiqamətində məğlub olmağımız da bunun sübutudur. Paşinyan hakimiyyəti səsküylü piar aparır, real nəticələrsə acınacaqlıdır. Azərbaycan öz planlarını addım-addım həyata keçirir. Minsk Qrupu Bakının bəyanatlarına heç bir reaksiya vermir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında da susurlar. Bu halda biz kimə ümid edə bilərik? Sabah müharibə başlasa, biz nə edəcəyik? Cavab kədərlidir. Hakimiyyət hələ də keçmişdə qalıb və hər şeyin günahını keçmiş hakimiyyətdə axtarır". Ekspert vurğulayır ki, bu halda Azərbaycan Qarabağda savaşı yeniləsə, nəticə ermənilər üçün çox ağır olacaq. Bunu Ermənistan Silahlı Qüvvələrinin keçmiş komandiri və Baş Qərargah rəisi olmuş general-leytenant Norat Ter-Qriqoryants da təsdiq edir. O bildirir ki, Azərbaycan Müdafiə Nazirliyinin açıqlamaları, ötən ay keçirdiyi təlimlər birbaşa Ermənistana ünvanlanmış mesajlardır:"Xatırladım ki, mayın 18-dən 22-nə qədər Azərbaycan Silahlı Qüvvələrinin genişmiqyaslı əməliyyat-taktiki hərbi təlimləri keçirilib. Naxçıvanda da hərbi təlimlər keçirilib. Ümumilikdə bütün qoşunlar hərbi təlimlər keçirir, xüsusən də Azərbaycan daim türklərlə hərbi təlimlər keçirir. Onlar dağlıq ərazilərdə hərbi əməliyyatların bütün planlarını hazırlayırlar. Hərbi təlimlər örtüyü altında birdənbirə əyilə və hücum edə biləcəklərini heç kim bilmir, çünki müharibə zamanı hərbi əməliyyatlarda ən vacibi aldatmaq, kimin kimi birinci aldadacağıdır. Bu aldatmadır. Onların əməliyyat maskalanması planı var". Norat Ter-Qriqoryants bildirib ki, Azərbaycan Müdafiə Nazirliyinin açıqlamaları da hücum barədə açıq xəbərdarlıqlardır. Erməni hərbi-siyasi xadim qeyd edib ki, Azərbaycan tərəfi bu hərbi təlimləri keçirərək eyni zamanda erməni tərəfini yoxlayır:"Onların kəşfiyyatı çox yaxşı işləyir. Onların İrəvanda da gizli agentləri var. Məsələn, İrandan turisttlər gəlir. Elə bilirsiniz onlar yalnız farslardır? Nə danışırsınız? Onlar arasında xalis azərbaycanlı olanlar var".

Ekspertlər də bildirir ki, Azərbaycan ordusunun bu dəfə atacağı addımlar işğalçı ölkənin məhvinə səbəb olacaq. Xüsusilə son illərdə Azərbaycanda ordu quruculuğu sahəsində əldə olunmuş nailiyyətlər bunu deməyə əsas verir. Digər tərəfdən faktdır ki, bu gün Azərbaycan ordusunu möhkəm intizam, vətənpərvərlik, yüksək mənəvi mübarizlik ruhu və döyüş qabiliyyəti səciyyələndirir. Ordumuz ən müasir silah və hərbi texnika ilə təchiz edilib. Bunlar fonunda savaş başlamadan belə Azərbaycan ordusu tərəfindən keçirilən genişmiqyaslı təlimlər işğalçı ölkəni təşviş içərisində saxlayır. Ermənistanda bu fonda açıq müşahidə edilir ki, ordumuz torpaqlarımızı düşmən tapdağından azad etməyə tam hazırdır. Bu səbəbdən yaxın vaxtlarda münaqişə ilə bağlı vəziyyətin sülh yolundan digər məcraya keçəcəyi əndişəsi Ermənistanda artır. Rəsmi Bakı da açıq bildirir ki, düşmənə qarşı irimiqyaslı tədbirlərin görülməsi artıq qaçılmazdır. Ermənistan tərəfinin təxribat xarakterli hərəkət və bəyanatları da ölkəmizi buna vadar edir.

Bu durumda erməni politoloq Qrant Məlik-Şahnazaryan bildirir ki, Azərbaycan diplomatik gedişlərini hərbi amil hesabına gücləndirərək ya mərhələli həll variantının reallaşmasına nail olacaq, ya da güc amilindən istifadə edərək Qarabağ məsələsində məqsədlərinə çatacaq. Erməni politoloq qeyd edib ki, bu məsələdə Azərbaycan özünə lazım olan beynəlxalq dəstəyi də təmin edə bilib. Buna sübut kimi "facebook"da canlı yayım zamanı ABŞ-ın Ermənistandakı səfiri Lin Treysinin Qarabağ münaqişəsinə dair sərgilədiyi mövqe göstərilir. Qeyd edək ki, yayım zamanı səfirə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı suallar verilib. İstifadəçilərdən biri " ABŞ Rusiyanın xarici işlər naziri Sergey Lavrovun son açıqlaması ilə razılaşırmı", deyə sual edib. Xatırladaq ki, təxminən bir ay əvvəl Sergey Lavrov Qarabağ münaqişəsi ilə bağlı müzakirələrin mərhələli prinsiplərə söykəndiyini bildirmişdi. Lavrovun fikrincə, birinci mərhələdə Qarabağ ətrafındakı bir sıra bölgələr azad edilməlidir. ABŞ-ın Ermənistandakı səfiri isə bu məsələyə dair suala cavabında bildirib:"ABŞ-ın ATƏT-in Minsk Qrupunun həmsədri kimi bu işdə fəal şəkildə cəlb edilmiş halda qalmaqda davam etdiyini vurğulamaq istəyirəm. Əlbəttə ki, Rusiya üç həmsədrdən biridir və biz digər həmsədrlərlə işimizi konstruktiv şəkildə qurmağa çalışırıq. Münaqişənin həllində vasitəçilik öhdəliyimizə sadiq qalırıq. Həmsədrlər olaraq vəzifəmiz münaqişənin sülh yolu ilə həllinə dəstək verməkdir". Səfir fəaliyyətin koordinasiyalı şəkildə aparıldığını bildirib. Yeri gəlmişkən vurğulayaq ki, Rusiya xarici işlər nazirinin məlum açıqlamasından sonra digər iki həmsədr ölkə olan ABŞ və Fransa heç bir əks-bəyanat vermədi. Erməni politoloq Suren Sarkisyanın fikrincə, Minsk Qrupundakı hər üç həmsədrin hər zaman ortaq bir razılığı olur:"Minsk Qrupu həmsədrlərindən birinin bir şey söylədiyi, digərinin isə əksini söylədiyi bir hadisəni xatırlamıram, çünki ümumiyyətlə, onlar açıqlamalarını razılaşdırırlar. Ən vacib olan isə amerikalıların və rusların birgə işlədiyi Minsk Qrupu formatıdır". ABŞ-ın mövqeyinə gəldikdə, erməni politoloqun fikrincə, nə ABŞ, nə də Fransa heç bir şəkildə Lavrovun sözlərini inkar etmədi: "Başqa sözlə, inkar etməyərək, fikirlərinin eyni olduğuna dair mövqelərini göstərdilər. Lavrovun açıqlamasının heç kim tərəfindən rədd edilmədiyi bir vəziyyətlə qarşılaşırıq, bu da dediklərinin həqiqət olduğunu göstərir". Erməni politoloq qeyd edib ki, səfir Treysi diplomatik dildə danışsa da, faktiki olaraq, Lavrovun yanaşmasını bölüşüb. Bu isə o deməkdir ki, Ermənistana mərhələli həllin reallaşması üçün təzyiqlər artacaq. Ermənistan buna qarşı getsə, onda Azərbaycan hərb maşınını işə salmalı olacaq və bu xüsusda Azərbaycan Müdafiə Nazirliyinin xəbərdarlıqları da təsadüfi xarakter daşımır. Yəni real vəziyyət budur ki, Ermənistan həm diplomatik, həm də hərbi müstəvidə sıxışdırılır. Getdikcə daha zəif duruma düşən Ermənistanın bütün bunlara müqavimət imkanları da yoxdur. Bu mənada, yaxın tezlikdə Qarabağ məsələsində müəyyən yeniliklərin olması istisna olunmur. Buna, yuxarıda qeyd olunduğu kimi, ya hərb, ya da diplomatik yolla nail olunacaq. Hansı varinatın işə salınacağı isə Ermənistanın Qarabağ münaqişəsinin çözümünə yanaşmasından asılı olacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**